Bülleten No: 12 / dekabr 2013

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
Məlumat Hesablama Mərkəzi

Elektron Hökumət Portalı
your gateway to all public services

www.e-gov.az

DEKABR 2013

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



# 2013-cü il "İKT ili" elan edildi



Prezident İlham Əliyev
2013-cü ilin Azərbaycan Respublikasında
"İnformasiya-kommunikasiya texnologiyaları ili"
elan edilməsi haqqında sərəncam imzaladı.

**Sərəncamda deyilir:**

"Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın (2003–2012-ci illər)" gerçəkləşdirilməsi ölkəmizdə informasiya cəmiyyətinin formalaşdırılması üçün müvafiq hüquqi baza yaratmışdır.

Bununla yanaşı, həyata keçirilən dövlət proqramları və zəruri islahatlar nəticəsində ölkəmizin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası təmin edilmiş, elektron hökumətin yaradılması, biliklərə əsaslanan iqtisadiyyatın təşəkkülü, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılmışdır.

Respublikamızda ən yeni texnologiya – 4G-nin tətbiqi, milli irsimiz və mədəniyyətimizlə bağlı materialların virtual məkanda daha dolğun şəkildə yerləşdirilməsi, azərbaycandilli internet resurslarının zənginləşdirilməsi, internet-radio və internet-televiziya proqramları, elektron qəzet və jurnalların yayılması, sosial şəbəkələrin geniş yer alması və respublika əhalisinin əksər hissəsinin internet istifadəçisinə çevrilməsi informasiya-kommunikasiya texnologiyalarının inkişafının əyani göstəricisidir.

Elm və texnikanın ayrı-ayrı istiqamətlərinin tərəqqisinə təkan verəcək kosmik sənayenin yaradılması ilə bağlı dünyanın aparıcı xarici mütəxəssislərinin iştirakı ilə Azərbaycanın süni telekommunikasiya peykinin orbitə çıxarılması üzrə işlərin artıq həlledici mərhələyə qədəm qoyması informasiya-kommunikasiya texnologiyalarının potensialından daha dolğun istifadə üçün möhkəm zəmin yaradır.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən "ASAN xidmət" mərkəzlərinin yaradılması da elektron hökumətin formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir.

BMT Baş Assambleyasının qəbul etdiyi "Minilliyin Bəyannaməsi" və "İnformasiya və kommunikasiya texnologiyalarından inkişaf naminə istifadə" haqqında qətnamələri nəzərə alaraq, qabaqcıl texnologiyaların vətəndaşların gündəlik həyatının müxtəlif sahələrində tətbiqini təmin etmək məqsədi ilə və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** 2013-cü il Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilsin.

**2.** Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə 2013-cü ilin Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsinə dair tədbirlər planını hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Elektron hökumət portalı haqqında Əsasnamə təsdiq edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Fərman imzaladı.**

Fərmanla "Elektron hökumət" portalı haqqında Əsasnamə" təsdiq edilib, Nazirlər Kabinetinə iki ay müddətində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin razılaşdırılmış təkliflərini nəzərə alaraq "2013-2015-ci illərdə dövlət orqanlarında elektron xidmətlərin genişləndirilməsi və "elektron hökumət"in inkişafına dair Dövlət Proqramı"nın layihəsini hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək tapşırılıb.

Bundan əlavə, Nazirlər Kabineti iki ay müddətində dövlət informasiya sistemlərinin və ehtiyatlarının yaradılmasının və idarə edilməsinin tənzimlənməsi barədə təkliflərini hazırlayıb Prezidentə təqdim etməli, həmçinin "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısını və informasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin portala qoşulması üçün texniki tələbləri Azərbaycan Prezidenti ilə razılaşdıraraq təsdiq etməlidir.

Fərmanla Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi "Elektron hökumət" portalının fəaliyyətinin təşkili və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görməli, dövlət orqanlarının elektron xidmətlərinin portala qoşulmasını təmin etməlidir.

Mərkəzi icra hakimiyyəti orqanları isə elektron xidmətlərin təşkilini sürətləndirməli və onların "Elektron hökumət" portalına qoşulması üçün zəruri tədbirlər görməlidir; informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsinin səmərəli təşkili məqsədi ilə sərəncamlarında olan informasiya sistemlərində və ehtiyatlarında fərdi identifikasiya nömrəsinin tətbiqini təmin etməlidirlər.

Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinə dövlət orqanlarının "Elektron hökumət" portalına qoşulması üçün onları zəruri telekommunikasiya kanalları ilə təmin etmək, portalın təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq tədbirlər görmək tapşırılıb.

www.e-gov.az

# “Elektron hökumət” bülleteninin ilk sayı nəşr olundu

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən hazırlanmış "Elektron hökumət" bülleteninin ilk sayı nəşr olundu.**

Bülletendə ölkə üzrə "elektron hökumət"in formalaşması istiqamətində görülən işlər, həyata keçirilən layihələr və elektron xidmətlər ilə bağlı statistik məlumatlar yer almış, müxtəlif dövlət orqanlarının informasiya sistemləri ilə bağlı yazılar dərc olunmuşdur.

Bülletenin elektron variantını "www.e-gov.az" portalından əldə etmək olar.




# Dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin reyestrləri istifadəyə verildi

**Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarına uyğun olaraq, dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətlərin təkmilləşdirilməsi, genişləndirilməsi və şəffaflığın artırılması məqsədilə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) tərəfindən dövlət informasiya ehtiyatlarının reyestrinin, eləcə də fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatının (reyestrinin) aparılması üçün proqram təminatı hazırlanıb istifadəyə verildi.**

Reyestrlərin operatoru olaraq, dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatına alınması və ləğv edilməsi RİTN-ə həvalə edilmişdir və hal hazırda müvafiq dövlət qurumları, aidiyyəti hüquqi və fiziki şəxslərin malik olduğu informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin reyestlərə daxil edilməsi istiqamətində RİTN tərəfindən lazımi işlər görülür.

Qanunvericiliyə uyğun olaraq, yeni yaradılan, qurulușunda dəyişikliklər aparılan, fəaliyyəti dayandırılan informasiya ehtiyatları haqqında məlumatların Dövlət Reyestrinə daxil edilməsi və ya müvafiq düzəlişlərin edilməsi üçün lazımi sənədlər (müraciət ərizəsi və qeydiyyat kartı) müraciət edən tərəfindən 20 gündən gec olmayaraq Reyestrin operatoruna təqdim edilməlidir.

Həmçinin “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsinə qədər mövcud olan və Qanunun tələblərinə uyğun olaraq qeydiyyatı məcburi olan informasiya sistemləri dövlət qeydiyyatından keçirilməlidir.

İnformasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin reyestrlərdə qeydiyyata alınması üçün qurumlar elektron imza və ya RİTN tərəfindən təqdim olunan kod-parol vasitəsi ilə sistemə daxil olaraq lazımi məlumatları (müraciət ərizəsi, qeydiyyat kartı və s.) sistemə daxil edə bilərlər.

# Mobil autentifikasiya sertifikatlarının tətbiqinə başlanıldı

**RİTN Məlumat Hesablama Mərkəzində mobil cihazlardan istifadə edərək e-hökumət portalına sürətli, müasir və yüksək təhlükəsizliyə malik olan autentifikasiya sisteminin hazırlanması ilə əlaqədar təqdimat keçirilmişdir.**

Yaradılmış sistem istifadəçilərə iki faktorlu autentifikasiya sxemindən istifadə edərək, internet vasitəsilə smart telefonlar, tablet kompüter kimi mobil cihazlarda xüsusi proqram vasitəsinin quraşdırılmasını, onunla rəqəmli sertifikatların yaradılmasını və sonra QR kodu skan edilərək e-hökumət portalına (istənilən informasiya portallarına inteqrasiya mümkündür) daxil olmağı təmin edir.

1 illik mobil autentifikasiya sertifikatı 4 AZN (ƏDV daxil), 2 illik mobil autentifikasiya sertifikatı 7 AZN (ƏDV daxil), 3 illik mobil autentifikasiya sertifikatı isə 9 AZN (ƏDV daxil) təşkil edir.



# Azərbaycanda 2016-cı ilə qədər "Elektron hökumət"in inkişafı üzrə yeni proqram hazırlandı

**Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tərəfindən "2013-2015-ci illərdə "Elektron hökumət"in inkişafı Dövlət Proqramı" layihəsi hazırlanır.**

Bu proqram Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı" nın davamıdır. Yeni proqram respublikada "Elektron hökumət"in formalaşdırılması və bunun üçün dövlət orqanlarında müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi yolu ilə idarəetmənin metod və mexanizmlərinin təkmilləşdirilməsi, elektron xidmətlərin göstərilməsi, həmçinin əhali və təşkilatların bu xidmətlərə asan və sərbəst çıxışı üçün kompleks tədbirlərin görülməsini nəzərdə tutur.

# "Azərbaycanda "elektron hökumət" üçün təlim mərkəzinin yaradılması" layihəsi üzrə Koreya ilə qrant razılaşması imzalandı

**Bu ilin aprel ayında "Azərbaycanda "elektron hökumət" üçün təlim mərkəzinin yaradılması" layihəsi üzrə "Koreya Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında Qrant razılaşması" imzalanıb.**

Sənədi rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov və Koreyanın Azərbaycandakı səfiri Çoi Suk-İn imzalayıb. Qeyd edək ki, layihə çərçivəsində Bakı şəhərində və Gəncə, Naxçıvan, Sumqayıt, Mingəçevir, Bərdə, Lənkəran, Qazax, Zaqatala, İmişli, Qəbələ, Göyçay, Şirvan, Şamaxı, Quba, Şəki daxil olmaqla on beş (15) bölgədə təlim mərkəzləri yaradılacaq.

Təlim mərkəzlərində Koreya mütəxəssisləri tərəfindən xüsusi təhsil informasiya sistemi quraşdırılacaq və zəruri avadanlıqlarla təmin olunacaq. Dövlət qulluqçuları bu mərkəzlərdə bilavasitə təlim kurslarında iştirak edə biləcək, eyni zamanda mərkəzin distant təhsil xidmətlərindən yararlanacaqlar. Layihə çərçivəsində təlim mərkəzinin fəaliyyətinin təşkili, elektron təlim materiallarının



hazırlanması üzrə təcrübə əldə etmək üçün yerli mütəxəssislər Koreyada təlim kursları keçəcəklər.

Azərbaycanda "elektron hökumət" üçün təlim mərkəzinin yaradılması dövlət qulluqçularına İKTnin tətbiqi sahəsində yeni praktik bilik və bacarıqların əldə edilməsinə imkan yaradacaq. Mərkəz dövlət idarəçiliyində və respublikanın ictimai həyatının digər sahələrində e-hökumət ideyalarının tətbiqinə, informasiya cəmiyyətinin inkişafına, elektron biliklərin ümumi səviyyəsinin yüksəldilməsinə, elektron xidmətlərin artmasına xidmət edəcək.

# "Elektron hökumət" portalının mobil qurğular üçün versiyası təqdim edildi



**May ayında planşet və smartfon istifadəçiləri üçün nəzərdə tutulmuş "Elektron hökumət" portalının mobil versiyası təqdim edilib.**

Burada (www.e-gov.az/mini) istifadəçilər elektron xidmətlərdən sadə formada yararlanmaqla yanaşı, portalda yerləşdirilən xidmətlər haqqında ən yeni məlumatları daha rahat əldə edə bilərlər. Yaradılan yeni imkanların əsas məqsədi xidmətlərin göstərilməsi üçün dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" maksimum azaltmaq, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Qeyd edək ki, "Elektron hökumət" - dövlət qurumları tərəfindən əhaliyə xidmət göstərilməsinin yeni üsuludur. "E-hökumət" - vətəndaşlara dövlət tərəfindən verilən xidmətlərin elektron mühitdə təqdim edilməsi deməkdir. Burada dövlət xidmətləri vətəndaşa ən asan, ən qısa zaman ərzində çatdırılır. Portal müxtəlif qurumlar tərəfindən təqdim olunan xidmətlərə tək bir internet saytı üzərindən daxil olmaq imkanı verir. Dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə həyata keçirilən fəaliyyətin səviyyəsini yüksəldir və onlardan istifadə imkanlarını sadələşdirir.

www.e-gov.az

# Prezident İlham Əliyevə Azərbaycan Respublikası vətəndaşının ilk biometrik pasportu təqdim edildi

**Sentyabrın 2-də Azərbaycan Respublikası vətəndaşının ilk biometrik pasportunun Prezident İlham Əliyevə təqdim edilməsi mərasimi olmuşdur.**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramı"nın, həmçinin "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə" 2012-ci il 17 iyul tarixli 686 nömrəli Fərmanın tələblərinin vaxtında təmin edilməsi məqsədilə bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Şəxsiyyəti təsdiq edən sənədlərin verilməsini tənzimləyən normativ hüquqi baza təkmilləşdirilmiş, ümumvətəndaş, xidməti və diplomatik pasportların təsviri, spesifikasiyası və nümunələri Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 17 iyul tarixli 687 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Şəxsiyyəti təsdiq edən yeni nəsil biometrik sənədlərin tətbiqi məqsədilə İqtisadi İnkişaf Nazirliyi tərəfindən aidiyyəti dövlət orqanlarının mütəxəssislərindən ibarət İşçi Qrupu yaradılmış, bu sahədə beynəlxalq səviyyədə tanınmış şirkətlərin təcrübəsi və əldə olunan nailiyyətlər öyrənilmiş, pasportların təsviri və spesifikasiyası hazırlanmışdır. Ümumvətəndaş pasportlarının hazırlanması



və verilməsi məqsədilə 9 regional mərkəz yaradılmışdır. Bu mərkəzlərdə xidmət üçün ən yüksək şərait vardır.

Azərbaycan Respublikası vətəndaşının ilk biometrik pasportu Prezident İlham Əliyevə təqdim edildi.

Beləliklə, sentyabrın 2-dən ölkəmizdə yeni nəsil biometrik pasportların verilməsinə başlanıldı. Vətəndaşlar ödədikləri dövlət rüsumunun məbləğindən asılı olaraq on, beş və bir iş günü ərzində ümumvətəndaş pasportları ilə təmin oluna biləcəklər.

## Vergilər Nazirliyinin Elektron imza üzrə Sertifikat Xidmətləri Mərkəzi RİTN-də akkreditə olunaraq fəaliyyətə başladı

Mayın ayında Bakıda Vergilər, Rabitə və İnformasiya Texnologiyaları nazirlikləri və "ASAN xidmət"in birgə təşkilatçılığı ilə "ASAN imza" – mobil hökumətin açarıdır" mövzusunda konfrans keçirildi. Konfrans Vergilər Nazirliyinin elektron imza üzrə Sertifikat Xidmətləri Mərkəzinin təqdimatına həsr olunmuşdu. Konfransın açılışında Vergilər Naziri Fazil Məmmədov və Rabitə və İnformasiya Texnologiyaları Naziri Əli Abbasov çıxış etmişlər. Bildirilmişdir ki, konfransın məqsədi vergi sistemində "ASAN imza"ya sahib olmağın prosedur qaydaları və gələcəkdə vətəndaşların elektron hökumətin xidmətlərindən istifadəsini müzakirə etmək və ictimaiyyətin diqqətinə çatdırmaqdır.

Fəaliyyətə başlaması üçün Vergilər Nazirliyinin sertifikat mərkəzi 2013-cü ilin may ayında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində akkreditə olub və milli sertifikat xidmətləri mərkəzləri sisteminə daxil edilib.

## BMT Azərbaycanı texnologiyaların inkişafında region üçün nümunə hesab etdi

Azərbaycanda yüksək texnologiyalar sahəsinin inkişafı regionun əksər ölkələri üçün yaxşı nümunədir. Bu fikri BMT baş katibinin qlobal tərəfdaşlıq məsələləri üzrə xüsusi nümayəndəsi Əmir Dossal söyləyib. "Biz Azərbaycanı yüksək texnologiyalar sahəsində dəyişikliklərdə ön cərgələrdə görürük. Azərbaycan bu sahədə region ölkələri üçün nümunəyə çevrilir", - bu həftə Bakıda səfərdə olan diplomat bildirib. Ə. Dossalın sözlərinə görə, texnologiyaların inkişafında tərəqqi ölkədə elektron təhsil, elektron hökumət, eləcə də yüksək texnologiyaların verdiyi çoxlu digər imkanların inkişafı üçün fəal şəkildə istifadə oluna bilər. Onun sözlərinə görə, informasiya texnologiyaların inkişafı sayəsində ünsiyyət üsullarının sadələşdirilməsi ölkə qarşısında ticarət və biznes sahəsində də yeni imkanlar açır.

Diplomat həmçinin onu da qeyd edib ki, Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov BMT-nin rəqəmli inkişafa xidmət edən Genişzolaqlı rabitə üzrə Komissiyasının tərkibinə daxildir.

# "Elektron hökumət"lə bağlı ən yaxşı yazı müsabiqəsi keçirildi

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin (RİTN) "İKT ili" çərçivəsində "Respublikada "Elektron hökumət": mövcud vəziyyət, problemlər, perspektiv və gözləntilər" mövzusunda elan etdiyi analitik məqalə müsabiqəsi keçirildi.**

Müsabiqənin keçirilməsində məqsəd "Elektron hökumət" quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, elektron xidmətlərlə bağlı görülən işlərin qiymətləndirilməsi, mövcud problemlərin həlli, "e-gov.az" portalının fəaliyyətinin təkmilləşdirilməsi üçün təkliflərin verilməsi, eyni zamanda bu sahədə həyata keçirilən yeniliklərin daha geniş auditoriyaya çatdırılmasından ibarət olub.

İki mərhələdə keçirilən müsabiqəyə ümumilikdə təqdim edilən 100-dən artıq məqalə içərisindən ilk mərhələnin nəticələrinə əsasən Təşkilat Komitəsi tərəfindən qiymətləndirilmiş 10 müəllif yazısı ikinci mərhələyə keçib.

Eyni zamanda ilk turda bir sıra yeniliklər tətbiq edilib. Belə ki, birinci mərhələdə səsvermənin daha obyektiv keçirilməsi üçün xüsusi elektron xidmət hazırlanıb. Nazirliyin Məlumat Hesablama Mərkəzi tərəfindən hazırlanan elektron xidmətə əsasən, ölkəmizdə ilk dəfə olaraq səsverən şəxsin şəxsiyyəti müəyyənləşdirilərək, onun yalnız bir dəfə səsvermədə iştirak etməsi təmin edilib.

### İKİNCİ TURUN NƏTİCƏLƏRİ AŞAĞIDAKI KİMİ OLMUŞDUR:

"Movqe.az" saytının müxbiri
**Zülfiyyə Quliyeva** "Qran Pri" (**3000** manat)

"Aznews.az" saytının müxbiri
**Ruhiyyə Hüseynova** 1-ci yer (**2500** manat)

"Ayna" qəzetinin müxbiri
**Aynurə Əhmədova** 2-ci yer (**1500** manat)

"EVE-S" MMC-nin satış meneceri
**Zahir Hətəmov** 3-cü yerin (**1000** manat)

4-11-cu yerlərin qalibləri isə noutbuklarla mükafatlandırılıblar. Eyni zamanda müsabiqə çərçivəsində iştirakçıların hər birinə e-imza vəsiqəsi, kart oxuyucusu, 6 aylıq "Azdatakom" internet xidməti (2 Mb/s) hədiyyə edilib.

# Ümumdünya İqtisadi Forumunun reytinqində Azərbaycanın İKT göstəriciləri xeyli yüksəldi

Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları (İKT) üzrə göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşıb. Xatırladaq ki, Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə Azərbaycan dünyanın 148 ölkəsi arasında 39-cu yeri tutub. Keçən ilin reytinqi ilə müqayisədə Azərbaycan (144 ölkə arasında) 46-cı yerdəki mövqeyindən 7 pillə irəliləyərək MDB məkanında öz liderliyini yenə də qoruyub saxlayıb. Rabitə və İnformasiya Nazirliyinin məlumatına görə, ölkədə mobil genişzolaqlı internet istifadəçilərinin sayı 54,8 faiz artıb. Hazırda Azərbaycanda hər 100 nəfərə 33,3 genişzolaqlı mobil internet istifadəçisi düşür və bu göstərici üzrə ölkəmiz 148 ölkə arasında 50-ci yeri tutur. Ölkədə hər internet istifadəçisinin payına 40,1 kbit/s internet trafiki düşür ki, bu da Azərbaycanın müvafiq reytinqdə 61-ci yerdən 45-ci yerə irəliləməsinə səbəb olub. Fərdi internet istifadəçilərinin sayına görə ölkəmiz ötən illə müqayisədə mövqeyini 8,4 faiz artıma nail olaraq 59-cu yerdə qərarlaşıb. Azərbaycanda əhalinin hər 100 nəfərinə 107,5 mobil telefon düşür və bu göstərici üzrə ölkəmiz 78-ci yeri tutur. Stasionar rabitə sahəsində Azərbaycanın göstəriciləri ötən illə müqayisədə 1,6 faiz yüksəlib. Bu göstərici üzrə ölkəmiz 67-ci mövqedədir. Hazırda hər 100 nəfərdən 18,4 faiz stasionar rabitə istifadəçisidir. Genişzolaqlı internet xidmətləri istifadəçilərinin sayına görə isə, Azərbaycan 47-ci yerdə qərarlaşıb ki, bu da ötən ilin müvafiq göstəricisindən 7 pillə yüksəkdir. Etiraf edilməlidir ki, Azərbaycan bu uğura ölkədə həyata keçirilən çevik iqtsadi siyasət nəticəsində imza atıb. Sirr deyil ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının modernləşdirilməsi və şaxələnməsi, qeyri-neft sektorunun sürətli inkişafına yönəlmiş iqtisadi inkişaf modelinin uğurla həyata keçirilməsi nəticəsində xeyli irəliləyişlərə nail olunub. Konkret olaraq cari ilin 6 ayında Azərbaycan iqtisadiyyatı bir daha makroiqtisadi dayanıqlıq və yüksək artım potensialını nümayiş etdirib ki, burada İKT-nin də öz payı var. Təsadüfi deyil ki, bu il ölkədə informasiya-kommunikasiya texnologiyaları ili elan edilib. Həyata keçirilən dövlət proqramları və layihələr nəticəsində Azərbaycanda kompüter və internet istifadəçilərinin sayı dəfələrlə artıb. Onu da xatırlatmaq yerinə düşərdi ki, Azərbaycan Cənubi Qafqaz ölkələri arasında informasiya cəmiyyətinə keçid strategiyası qəbul etmiş ilk və yeganə dövlətdir. Ümumilikdə isə bu sahə üzrə dünya ölkələri arasında birinci sıralarda durur. Azərbaycanın telekommunukasiya peyki olan Azerspace-1 peykinin buraxılması İKT sahəsində əldə edilən uğurlardan hesab olunur. İndi telekommunikasiya peyki olan Azerspace-1 səs, verilənlər, internet, TV və radio yayım xidmətləri göstərir. Peyk ekvatorun üzərində Yerdən 36 000 km məsafədə geostasionar orbitdə, 46° Şərq uzunluğunda yerləşir. Yer səthinə nəzərən peyk Somali yaxınlığında Hind okeanı üzərindədir. Bununla Azərbaycanda əhaliyə internet və rabitə sahəsində göstərilən xidmətlərin keyfiyyəti artın, xidmət haqları isə aşağı düşüb. Belə ki, təkcə 2013-cü ilin altı ayı ərzində İnformasiya və rabitə müəssisələri əhaliyə, müəssisə və təşkilatlara faktiki qiymətlərlə 845.5 milyon manat dəyərində və ya ötən ildə olduğundan 6.9 faiz çox rabitə xidməti göstərmişlər. Xidmətlərin 72.3 faizi bilavasitə əhaliyə xidmətlə bağlı olmuş və əldə edilmiş gəlirin 76.6 faizi qeyri-dövlət sektorunun payına düşüb. Həmçinin Azəryacanda yaradılan elektron hökumət portalında elektron xidmətlərin sayı maksimuma çatdırılıb. Bu isə o deməkdir ki, ölkədə İKT sahəsində həyata keçirilən siyasət bu sahənin inkişaf dinamikası ilə yanaşı, əhalinin rahatçılığına hesablanıb.

www.e-gov.az

# Elektron Hökumət Portalı sağlamlıq imkanları məhdud vətəndaşlar üçün aksiyaya başladı



**Elektron xidmətlərdən istifadədə bərabərlik prinsipini əsas götürən "Elektron Hökumət" Portalı portala müraciət edənlər arasında sağlamlıq imkanları məhdud, fiziki qüsurlu insanların çoxluğunu da nəzərə alaraq, sosial yönümlü yeni aksiyaya başlamaq qərarı verdi. Aksiya hələlik Bakı şəhərini əhatə edir.**

Belə ki, əlilliyi olan insanların ictimai həyatın bütün sahələrində iştirak etməsi üçün bərabər imkanlara malik olması, onların öz fərdi əmək qabiliyyətlərinə və maraqlarına uyğun dolğun həyat sürməsi məqsədi ilə elektron xidmətlərdən istifadə edə bilmələri, portal üzərindən aidiyyəti hökumət orqanları ilə onlayn əlaqə yarada bilmələri üçün onlara zəruri şəraitin yaradılması və minimum biliklərin verilməsi cəmiyyətimizin xüsusi diqqət mərkəzində olmalı və bu şəxslər daim qayğı ilə əhatə edilməlidirlər. Məlum olduğu kimi, "Elektron hökumət" portalından istifadə zamanı təqdim edilən daxilolma vasitələrinin

(sadələşdirilmiş kod parol, elektron imza və s.) əldə edilməsi üçün vətəndaşın sosial sığorta kartı, sürücülük vəsiqəsi və ya ümumvətəndaşlıq pasportunun olması şərtdir və ya vətəndaş müvafiq qeydiyyat məntəqələrinə gedərək fiziki surətdə identifikasiya olunmalıdır. Lakin əksər hallarda əlil vətəndaşlarımızın heç də hamısı bu sənədlərə malik deyillər və qeydiyyat məntəqələrinə getmək onlar üçün əlçatan deyil. Beləliklə, "Elektron hökumət" portalının verdiyi imkanlardan bərabər hüquqla yararlanma imkanlarının yaradılması üçün MHM tərəfindən xüsusi qeydiyyat bölməsi yaradılır. Evində kompüteri və ya mobil planşeti, eyni zamanda internetə çıxışı olan, kompüterlə işləmə bacarıqlarına malik və ya yardımçısı olan əlil vətəndaşlarımız şəxsiyyət vəsiqəsində yer alan məlumatları səhih olaraq müraciət formasında doldurmalıdırlar. Bundan sonra "Elektron hökumət" portalı vətəndaşın həqiqətən əlil olduğunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya bazasından dəqiqləşdirəcək. Dəqiqləşmədən sonra vətəndaşlarımızla əlaqə saxlayan "Elektron hökumət" portalının əməkdaşları uyğun vaxt ərzində evlərə gedərək, vətəndaşları identifikasiya etməklə, onlara portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol və ya mobil İD təqdim edəcəklər. Eyni zamanda həmin şəxslərə portaldan istifadə qaydaları barədə yerindəcə zəruri biliklər veriləcək.

# "Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası" sərgisi keçirildi

Sentyabrın 17-də "Bakı Expo" Sərgi Mərkəzində Azərbaycanın son 10 ildə əldə etdiyi uğurlara həsr olunmuş "Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası" sərgisi fəaliyyətə keçirilmişdir. Sərginin 3 pavilyonunda ölkəmizin sənaye, energetika, İKT, kənd təsərrüfatı, sahibkarlıq, regionların sosial-iqtisadi inkişafı, nəqliyyat, turizm, fövqəladə hallar, şəhərsalma, səhiyyə, elm və təhsil, mədəniyyət, gənclər və idman, ekologiya, su və kanalizasiya və digər sahələrdə qazandığı nailiyyətlər, eləcə də müxtəlif kənd təsərrüfatı və sənaye məhsulları nümayiş etdirilib. Ziyarətçilər sərginin açıq havada təşkil edilən hissəsində bir sıra texnika və avadanlıqlar, Azərbaycanda istehsal olunan məhsullarla tanış ola bilərlər. Sərgi çərçivəsində müxtəlif dövlət qurumlarının günlərinin keçirilməsi də nəzərdə tutulmuşdur. "Azərbaycan 10 ildə. Sosial-iqtisadi inkişaf: dövlət proqramlarının icrası" sərgisi oktyabrın 15-dək davam etmişdir.



# "Elektron hökumət"dən daha bir yenilik: portala daxilolma vasitələrinin sayı artırıldı

**"Elektron hökumət" portalından istifadə imkanlarının genişləndirilməsi və elektron xidmətlərdən daha rahat istifadənin təmin edilməsi məqsədi ilə növbəti yenilik həyata keçirilib.**

Belə ki, portaldan istifadə üçün təklif olunan autentifikasiya vasitələrinin sayı artırılaraq "www.e-gov.az"-a giriş imkanı verən artıq beşinci vasitə istifadəçilərin ixtiyarına verilib. Bu, "Asan imza ilə daxilolma" adlanır. İstifadəçi Vergilər Nazirliyinin sertifikat xidmətləri mərkəzi tərəfindən verilən "Asan imza" ilə daxil olmaq üçün, portala giriş bölməsində, "Asan imza ilə daxilolma" menyusuna daxil olmalı və mütləq təqdim olunan hər üç bəndi – "İstifadəçinin mobil nömrəsi"ni, "İstifadəçi ID"-ni və şəkildə göstərilən təhlükəsizlik kodunu doldurmalıdır.

Daha sonra aşağı hissədə "Asan imza" ilə giriş düyməsini basmalıdır. Bu zaman onun telefonuna pin-kod göndərilir. Əgər pin-kodun dürüstlüyü təsdiqlənərsə, istifadəçi telefonunda "Ok" düyməsini basır və onun şəxsiyyəti autentifikasiya olunur. Əgər istifadəçinin kimliyi doğrudursa, o, portala daxil olaraq, istədiyi elektron xidmətdən yararlana bilir.

Qeyd edək ki, Vergilər Nazirliyinin sertifikat mərkəzi 2013-cü ilin may ayında akkreditə olub və milli sertifikat xidmətləri mərkəzləri sisteminə daxil edilib. Hal-hazırda Vergilər Nazirliyi sertifikat xidmətləri mərkəzi tərəfindən 10 mindən artıq vergi ödəyicisinə "Asan imza" sertifikatları verilib. Bundan başqa, Vergilər Nazirliyinin informasiya sistemləri ilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin informasiya sistemləri arasında qarşılıqlı elektron informasiya mübadiləsini təmin edəcək müqavilə imzalanıb.

# "Elektron hökumət" portalına daxil olanların sayı 245 607 nəfərə çatdı




ŞƏKİL 1

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin (RİTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2013-cü ilin noyabr ayının 30-a qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 424 778 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 245 607 nəfər olub. Belə ki, 245 607 nəfər ümumən 424 778 dəfə portala baxıb və 651 008 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 1 480 010 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 46 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 58%-ni yeni istifadəçilər, 42%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün noyabr ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 31 933 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 20 449 nəfər olub. Həmin şəxslər 112 164 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 71 365 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 10 saniyə təşkil edib. Noyabr ayı ərzində portala müraciət edənlərin 50.9%-ni yeni istifadəçilər, 49.1%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 22500-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 272 ədəd olub.




ŞƏKİL 2

www.e-gov.az

# “Elektron hökumət” portalı vətəndaşların ideya və təkliflərini qəbul etməyə başladı




“Elektron hökumət” portalı vətəndaşlara daha bir yenilik təqdim etdi. İnternet istifadəçiləri portalda yeni bir xidmət - “Fikir bankı” ilə tanış ola bilərlər. “Fikir bankı” əslində sırf vətəndaş mövqeyinə hesablanmış bir məsələdir. İnternet istifadəçisi olan istənilən şəxs rəsmi portalda “Fikir bankı”na daxil ola və “Elektron hökumət” layihəsi çərçivəsində mümkün ola biləcək istənilən məsələni təklif kimi qeyd edə bilər: “Vətəndaşın verdiyi ideya və təklif saytın idarəçiləri tərəfindən təsdiqlənir. Bu proses baş tutduqdan sonra təklif saytda görünür. Həmin təsdiqlənmiş təklifi digər istifadəçilər də görmək imkanına malikdirlər”.

Saytda təklifi görən ziyarətçilər üçün iki düymə mövcuddur: “Bu düymələrdən biri bəyənmək, digəri isə bəyənməmək adlanır. Ümumi olaraq internet istifadəçiləri bu iki düymə vasitəsilə saytda göstərilən təkliflərə qiyabi də olsa öz rəylərini bildirə bilərlər”.

Qeyd edək ki, “Elektron hökumət” portalında maraqlı olan internet istifadəçiləri “Fikir bankı”nda təklif göndərmək üçün şəxsiyyət vəsiqəsi və ya “Facebook” hesabı ilə autentifikasiya olunmalıdırlar.

# “Elektron hökumət portalı” ilə bağlı suallar “Skype” vasitəsilə də cavablandırılmağa başlandı

**Vətəndaşların “Elektron hökumət” portalı ilə ünsiyyət imkanı genişləndirilib. Portalın rəsmi “Skype” ünvanı (e-gov.az1) istifadəçilərin ixtiyarına verilib. Bununla da vətəndaşlar suallarını sözügedən proqram vasitəsilə asanlıqla portala ünvanlaya bilərlər. Müraciət edənlərin sualları operativ şəkildə cavablandırılır.**

Xatırladaq ki, “Elektron hökumət” - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsinə şərait yaradır.

Yaradılan yeni imkanların əsas məqsədi xidmətlərin göstərilməsi üçün dövlət qulluqçuları və vətəndaşlar arasında olan “məsafə”ni maksimum azaltmaq, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın vasitələridir. Beynəlxalq təcrübəyə əsasən vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün “bir pəncərə” prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi “Elektron hökumət” portalı tətbiq edilir.



# Elektron hökumət portalında qeyri-rezident bölməsi yaradıldı




**Artıq “Elektron hökumət” portalı ölkəmizin vətəndaşları ilə bərabər xarici ölkə vətəndaşlarına da elektron xidmətlərin göstərilməsinə şərait yaradır. Belə ki, “Elektron hökumət” portalında (www.e-gov.az) “Qeyri-rezident” adlı yeni bir bölmə əlavə edilib. “Qeyri-rezident” bölməsində ilk olaraq üç dövlət qurumu - Xarici İşlər Nazirliyi, Diasporla İş Üzrə Dövlət Komitəsi, həmçinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi öz elektron xidmətlərini yerləşdiriblər.**

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təqdim etdiyi elektron xidmət KİV nümayəndələri üçün nəzərdə tutulub. Nazirliyin təqdim etdiyi elektron xidmət “Xarici müxbirlərin akkreditasiyası üçün müraciətin və sənədlərin qəbulu” adlanır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təqdim etdiyi elektron xidmət istənilən ölkənin vətəndaşı üçün daim aktual bir məsələ ilə bağlıdır və bu “Ölkələrarası övladlığa götürmə üçün müraciətin və sənədlərin qəbulu” adlanır.

Diasporla İş Üzrə Dövlət Komitəsinin təqdim etdiyi elektron xidmət isə xarici ölkələrdə yaşayan azərbaycanlılar üçün nəzərdə tutulub və bu xidmət “Xaricdə yaşayan azərbaycanlıların elektron müraciəti” adlanır. Bu xidmət vasitəsilə Azərbaycandan kənarda yaşayan həmyerlilərimiz onları maraqlandıran istənilən məsələni elektron müraciət formasında Diasporla İş Üzrə Dövlət Komitəsinə yaza bilərlər.

# Portal üzərindən "Dilmanc" proqram təminatı vasitəsilə yeniliklərin, xəbərlərin, mətnlərin səsləndirilməsi xidməti istifadəyə verildi

“Elektron hökumət” portalı davamlı olaraq bir-birindən fərqli yeniliklərlə istifadəçilərin qarşısına çıxır. Bu dəfə portal istifadəçilər üçün daha maraqlı yeniliklər təqdim edilib. Belə ki, “Elektron hökumət” portalına (www.e-gov.az) daxil olan istifadəçilər istənilən bir xəbərlə tanış olduqda, artıq onu mütləq vizual oxumaq məcburiyyətində qalmayacaqlar, portalın yeni funksiyası vasitəsilə mətni səsli şəkildə dinləyə biləcəklər. Bunun üçün mətnin yuxarısına iki yeni düymə əlavə edilib. Bu düymələrin biri vasitəsilə bütün mətnə, digər düymə ilə isə yalnız seçilmiş hissəni səsli şəkildə qulaq asmaq mümkündür. Bundan başqa həmin səsli mətni, yəni səs faylını mp3 formatında yaddaşda da saxlamaq olar. Bu funksiyanın ən maraqlı cəhətlərindən biri də odur ki, “Elektron hökumət” portalında olan istifadəçi bu xəbəri səsli şəkildə dinlədiyi zaman, eyni vaxtda kompüterində digər əməliyyatları da yerinə yetirə bilər.




**İstifadəçilərin rahatlığı üçün digər yenilik isə “Elektron hökumət” portalında elektron xidmətlərə dair təlimatların və video təlimatların yerləşdirilməsidir.**

Portal tərəfindən təqdim olunmuş elektron xidmətlərə daxil olduqda, yerləşdirilmiş video təlimat düyməsini vuraraq, seçilən xidmətdən istifadə qaydalarını izləmək mümkündür.

Hal-hazırda Rabitə və İnformasiya Texnologiyalar Nazirliyinin xidmətlərinə dair 7 ədəd təlimat və 6 ədəd video təlimat yerləşdirilib. İstifadəçilər elektron xidmətlərdən istifadə zamanı hər hansı bir məsələdə çətinlik çəkdikdə, göstərilən təlimatlarla tanış olaraq, işlərini asanlaşdıra bilərlər.

www.e-gov.az

# Sosial şəbəkədə dövlət qurumları və təşkilatları arasında ən böyük istifadəçi aktivliyi "Elektron hökumət" portalında oldu – 100 000 istifadəçi

Bu gün Azərbaycandakı dövlət qurumlarının hər birinin rəsmi internet saytı mövcuddur. Ölkədə "Elektron hökumət" layihəsinin icra edildiyi bir vaxtda bütün dövlət qurumları çalışırlar ki, rəsmi saytlarını daim aktiv nəzarətdə saxlasınlar. Hətta elə qurumlar və təşkilatlar var ki, onlar vətəndaşları maraqlandıran problemləri onlayn həll etməyi, aylarla növbəyə yazılıb görüşməkdən daha üstün tuturlar.




Bu prinsip hazırda vətəndaşların böyük əksəriyyəti tərəfindən dəstəklənir. Vətəndaşlar da fikirləşirlər ki, texnologiyanın inkişaf etdiyi bir dövrdə, hər hansı bir dövlət müəssisəsində onu maraqlandıran suala cavab almaq üçün, süründürməçiliklə üzləşməkdənsə, həmin təşkilatlarla elektron vasitələrlə əlaqə saxlamaq daha uyğundur.

Vətəndaşlara rahat şəraiti yaratmaq üçün əksər dövlət qurumları "Elektron hökumət" layihəsi çərçivəsində maksimum sürətlə təqdim etdikləri xidmətləri elektronlaşdırmağa çalışırlar. Bu gün dövlətin əsas siyasətindən biri də hökumət və vətəndaş münasibətlərini elektron müstəvidə həll etməkdən ibarətdir. O cümlədən, vətəndaşların müraciət və sorğularının operativ cavablandırılması üçün əksər dövlət qurumlarının saytları ilə yanaşı, rəsmi "Facebook" səhifəsi də fəaliyyət göstərir. Apardığımız araşdırma zamanı məlum oldu ki, "Facebook" vasitəsilə vətəndaşlarla daha aktiv işləyən qurumlar Azərbaycan Respublikası Təhsil Nazirliyi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, "Elektron hökumət" portalı və "ASAN xidmət"dir. Adlarını çəkdiyimiz dövlət qurumları "Facebook"da vətəndaşların ünvanladığı heç bir sualı cavabsız qoymurlar.

Ümumiyyətlə, bu gün Azərbaycanda "Facebook" istifadəçilərinin sayı təxminən bir milyon yarıma yaxındır. Söz yox ki, bunların arasında fake (saxta) profillər də mövcuddur. Azərbaycanda bu gün ən çox istifadəçi toplamış "Facebook" səhifəsi məhz Azərbaycan adlanır. "Azərbaycan" səhifəsinə üzv olan istifadəçilərin sayı artıq 500 min nəfəri ötüb. 2008-ci ildə yaradılmış Azərbaycan səhifəsinin əsas məqsədi Vətənimiz Azərbaycana aid məlumatlar, ölkəmizin görməli yerlərinin fotoşəkillərinin paylaşılması, gənclərimizin vətənpərvər ruhda tərbiyələndirilməsi istiqamətində materialların yerləşdirilməsidir.

Səhifədə əsas etibarilə Azərbaycanda tarixi hadisələrin baş verdiyi günlərdə, görkəmli şəxsiyyətlərimizin, o cümlədən Azərbaycan Respublikası Milli Qəhrəmanlarının doğum günlərində həmin mövzularda materiallar yerləşdirilir. Bundan başqa, səhifədə ölkəmizin rayonları, şəhərləri, tarixi yerləri və turizm mərkəzlərinin fotoşəkillərinin paylaşılması ilə həmin sahələrə marağın artırılması da mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda dövlət xadimləri arasında lider "Facebook" səhifəsi ölkə başçısı İlham Əliyevindir. Səhifəni 271 000-dən artıq istifadəçi bəyənib. Növbəti yeri 181 000 istifadəçi ilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəsmi səhifəsi tutur. Üçlüyü isə 97 000 istifadəçi sayı ilə ölkənin birinci xanımı Mehriban Əliyevanın adına olan səhifə tutur. Dövlət qurumları və təşkilatları arasında birinci yerdə 100 000 istifadəçi ilə "Elektron hökumət" portalının rəsmi "Facebook" səhifəsi dayanır. İkinci yerdə 95 000 istifadəçi ilə "ASAN xidmət" mərkəzinin rəsmi "Facebook" səhifəsi qərarlaşır. Üçlüyü isə 43 000 izləyici ilə TQDK-nın rəsmi "Facebook" səhifəsi tamamlayır.

**Ən tanınmış digər dövlət qurumları "Facebook"dakı istifadəçi sayına görə məhz bu cür sıralanır:**

Milli Sertifikat Xidmətləri Mərkəzi (e-imza) - **33 500**
Dövlət Neft Şirkəti – **33 000**
Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi - **20 000**
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi - **16 000**
Vergilər Nazirliyi - **16 000**
Səhiyyə Nazirliyi - **12000**
Təhsil Nazirliyi - **10 000**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi - **10 000**
AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya - **5 000**
Strateji Araşdırmalar Mərkəzi - **4 300**
Diasporla İş üzrə Dövlət Komitəsi - **3 000**
Milli Təhlükəsizlik Nazirliyi - **2 300**
Azərbaycan Respublikasının Baş Prokurorluğu - **1 500**
Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi - **1 200**
İqtisadiyyat və Sənaye Nazirliyi - **820**

Statistikadan da aydın olur ki, dövlət qurumları və təşkilatları arasında ən böyük istifadəçi aktivliyi "Elektron hökumət" portalındadır. Bu da onu göstərir ki, vətəndaşlar "Elektron hökumət" layihəsinə etimadları və tələbatları çox yüksəkdir. Elektron xidmətlər vətəndaşların problemlərini daha operativ və ədalətli həll edən bir mexanizmdir.

Elektron xidmətlərə ölkədə marağın bu cür artdığını görüb, "Elektron hökumət" portalının rəsmi "Facebook" səhifəsi ilə maraqlandıq. 100 000-dən çox üzvü olan səhifə 2012-ci ilin 11 oktyabr tarixindən "Facebook"da fəaliyyət göstərir. Bu müddət ərzində səhifədə "Elektron hökumət"lə bağlı həyata keçirilən yeniliklər paylaşılmış və vətəndaşları maraqlandıran bütün suallara cavab verilib. Bu proses bu gün də davam etdirilir. Elektron xidmətlərlə bağlı istənilən yeniliyi ilk olaraq rəsmi səhifə vasitəsilə əldə etmək mümkün olur.




# Bu il "Bakutel" şərgisi çərçivəsində bir sıra beynəlxalq konfranslar keçiriləcək

2 - 5 DEKABR
Bakutel

**Payız sərgi mövsümü 2-5 dekabr tarixində "Bakutel 2013" 19-cu Azərbaycan Beynəlxalq "Telekommunikasiya və İnformasiya Texnologiyaları" sərgisi ilə başa çatacaq.**

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2013-cü il Azərbaycanda "İnformasiya və kommunikasiya texnologiyaları ili" elan edilib və bu kontekstdə bu il keçirilən "Bakutel 2013" sərgisi Azərbaycanın İKT sektorunda əldə etdiyi nailiyyətlərin nümayişi üçün unikal meydança olacaqdır.

Ənənəvi olaraq, sərgidə aparıcı İKT şirkətləri, mobil rabitə və kommunikasiya operatorları, habelə internet provayderləri iştirak edəcəklər.

Sərgiyə həmçinin Belarus, Çin, Malayziya, Rusiya, Sloveniya, ABŞ, Ukrayna, Yaponiya və digər ölkələrdən olan şirkətlər də qatılacaqlar. Builki sərginin fərqli cəhəti milli stendlərin say etibarı ilə daha çox olmasıdır.

Sərgini geniş işgüzar proqram müşayiət edəcək.

Belə ki, sərgi çərçivəsində kibertəhlükəsizlik mövzusunda konfrans və Dünya azərbaycanlılarının I virtual konfransı, habelə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və İnformasiya Texnologiyaları İnstitutunun təşkilati dəstəyi ilə "Azərbaycanda internet: dünən, bu gün və sabah" mövzusunda beynəlxalq elmi-praktik konfrans, "TASİM" konsorsiumuna daxil olan əsas telekommunikasiya operatorlarının illik forumu, "İnternet regional inkişaf və təşviqatın lokomotivi kimi" mövzusunda internet idarəçiliyi üzrə Azərbaycan Respublikasının birinci beynəlxalq forumu, Azərbaycan Respublikasında dövlət və özəl İKT sektorları arasında əməkdaşlıq üzrə mütəxəssislər mərkəzinin yaradılması ilə əlaqədar tədbir, o cümlədən Asiya və Sakit okean regionu üzrə iqtisadi və sosial komissiyanın "Biliklərə əsaslanan iqtisadi inkişaf üzrə "SPECA" layihəsinin (BMT-nin Mərkəzi Asiya üzrə xüsusi iqtisadiyyat proqramı) işçi qrupu"nun iclası və Azərbaycan-Argentina və Azərbaycan-ABŞ İKT forumları keçiriləcək.

Elektron Hökumət Portalı da ilk dəfə olaraq sərgidə iştirak edəcəkdir.

www.e-gov.az



## 01.11.2013 – 29.12.2013-cü il dövrü ərzində “Elektron hökumət” portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 49809 |
| 2 | Sığortaolunanın illər üzrə ödənişləri və pensiya kapitalı | Dövlət Sosial Müdafiə Fondu | 3411 |
| 3 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2743 |
| 4 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2543 |
| 5 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1328 |
| 6 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1271 |
| 7 | Pensiya kapitalı barədə məlumat | Dövlət Sosial Müdafiə Fondu | 843 |
| 8 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 679 |
| 9 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 675 |
| 10 | Daşınmaz əmlakın lizinqinin dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 423 |

## 01.11.2013-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 37 | 92 | 129 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.10.2013 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 12232 | 704 | 3648 | 16584 |

## 2013-cü ilin noyabr ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 1 | 4 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1 | 5 |
| 3 | Energetika Nazirliyi | - | - |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 2 |
| 5 | Xarici İşlər Nazirliyi | 1 | 4 |
| 6 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 | 2 |
| 8 | Dövlət Gömrük Komitəsi | 3 | 224 |
| 9 | Dövlət Sosial Müdafiə Fondu | 11 | 11345 |
| 10 | Dövlət Statistika Komitəsi | 4 | 245 |
| 11 | Vergilər Nazirliyi | 9 | 1138 |
| 12 | Ədliyyə Nazirliyi | 7 | 1069 |
| 13 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 1 | 1 |
| 14 | Fövqəladə Hallar Nazirliyi | 4 | 205 |
| 15 | Müdafiə Sənayesi Nazirliyi | - | - |
| 16 | Səhiyyə Nazirliyi | 20 | 624 |
| 17 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 2 | 17 |
| 18 | Diasporla İş Üzrə Dövlət Komitəsi | 1 | 1 |
| 19 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | - | - |
| 20 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 6 | 203 |
| 21 | Dövlət Dəniz Administrasiyası | 1 | 3 |
| 22 | Təhsil Nazirliyi | 3 | 589 |
| 23 | Gənclər və İdman Nazirliyi | 3 | 6 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 493 |
| 25 | İqtisadiyyat və Sənaye Nazirliyi | 3 | 4 |
| 26 | Kənd Təsərrüfatı Nazirliyi | - | - |
| 27 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 7 | 812 |
| 28 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | - | - |
| 29 | Daxili İşlər Nazirliyi | 3 | 703 |
| 30 | Dövlət Sərhəd Xidməti | 2 | 5 |
| 31 | Müəllif Hüquqları Agentliyi | 2 | 2 |
| 32 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1 | 124 |
| 33 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 316 |
| 34 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | - | - |
| 35 | "AzərEnerji" ASC | 1 | 10 |
| 36 | "AzərSu" ASC | 1 | 338 |
| 37 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 4 | 185 |
| 38 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 42 | 52685 |
| 39 | Mərkəzi Seçki Komissiyası | - | - |
| | **CƏMİ** | **160** | **71365** |

www.e-gov.az

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmərlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*29.11.2013*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 6 | 7 | 13 | 13 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 4 | 9 | 44 | 40 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 8 | 6 | 6 | 7 | 6 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 9 | 12 | 12 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 12 | 12 | 16 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 21 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 22 | 22 | 25 | 25 |
| 15 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 16 | 9 | 25 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 15 | 13 | 16 | 16 | 13 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 1 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 5 | 6 | 21 | 25 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 9 | 12 | 15 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 2 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 2 | 1 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36-1 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 44 | Mərkəzi Seçki Komissiyası | 0 | 0 | 6 | 9 | 0 |
| 45 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 0 | 0 | 1 | 4 | 0 |
| | **CƏMİ:** | **425** | **207** | **270** | **448** | **359** |

# 8 fevral 2013-cü il tarixində Azərbaycanın ilk milli peyki buraxılaraq istifadəyə verilmişdir

Azərbaycanın ilk telekommunikasiya peyki “Azerspace-1” 7 fevral 2013-cü il tarixində Fransız Qvianasında (Cənubi Amerikada, Fransanın inzibati idarəçiliyində olan ada) yerləşən Kuru kosmodromundan, Qviana Kosmik Mərkəzindən yerli vaxtla saat 18.36-da (Bakı vaxtı ilə 8 fevral 2013-cü il saat 01.36) orbitə buraxılmışdır.




© 2013 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az